Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika
Uşaq Kitabxanası**

# Azərbaycanın folklor paytaxtları

(Qazax, Lənkəran, Masallı, Zaqatal

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Azərbaycanın folklor paytaxtları

(Qazax, Lənkəran, Masallı, Zaqatala, Balakən)

**Respublika Uşaq kitabxanaları**
**üçün tövsiyə biblioqrafiyası**

**Bakı-2017**

**Tərtibçi:** **Nazilə Tahirova,**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktoru və buraxılışa məsul**: **Şəhla Qəmbərova,**
*Əməkdar mədəniyyət işçisi*

**Azərbaycanın folklor paytaxtları:** (Qazax, Lənkəran, Masallı, Zaqatala, Balakən) tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova; red. və bur. məs. Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.- 30 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

# Tərtibçidən

Azərbaycanda qeyri-maddi mədəni irsin inkişafına yönəldilmiş çoxsaylı respublika, beynəlxalq folklor müsabiqə və festivalları, sənətkarlıq yarmarkaları, diyarşünaslıq mövzusunda "dəyirmi masa"lar, konfranslar, digər tədbirlər təşkil olunur. "Qeyri-maddi mədəni irsin qorunmasına dair" UNESCO Konvensiyasının tövsiyələrinə əsasən, beynəlxalq təcrübədən bəhrələnərək hazırlanmış "Şəhər (rayon) mədəniyyət mərkəzlərinin yaradılması" layihəsi artıq bir sıra bölgələrdə həyata keçirilərək müsbət nəticə vermişdir. Bu sahədə reallaşdırılan müvafiq konseptual layihələr sırasında "2010-2014-cü illər üçün xalq yaradıcılığı paytaxtları" proqramının xüsusi yeri var. Proqrama uyğun olaraq regionlarda keçirilən müvafiq tədbirlər Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunmasına, xalq yaradıcılığının təşviqinə, tarazlı və davamlı regional sosial-iqtisadi inkişafa xidmət edir. Ötən illərdə proqrama əsasən üç nominasiya - əfsanələr, sənətkarlıq və folklor üzrə Azərbaycanın 15 rayon və şəhəri "Xalq yaradıcılığı paytaxtı" elan olunub. Bölgələrdə müxtəlif mədəni-kütləvi tədbirlər, elmi-praktik konfranslar, "dəyirmi masa"lar, konsertlər, festival və sərgilər keçirilib. "Xalq yaradıcılığı paytaxtları" proqramında diyarşünaslıq (əfsanələr), folklor və sənətkarlıq istiqamətləri üzrə "Xalq yaradıcılığı paytaxtları"nın seçilməsi nəzərdə tutulub. Hər üç nominasiya üzrə daxil olmuş təkliflər müvafiq namizəd şəhər və rayonların ümumi hazırlığı, tarixi ənənələri və digər amillər nəzərə alınaraq təhlil edilib və Azərbaycanın "Əfsanələr paytaxtı", "Folklor paytaxtı" və "Sənətkarlıq paytaxtı" elan olunub.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyat şöbəsi **Azərbaycanın folklor paytaxtları:** (Qazax, Lənkəran, Masallı, Zaqatala, Balakən) adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar öz əksini tapmışdır. Vəsaitdə ədəbiyyat xronoloji prinsip əsasında, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç.88;
**E-mail:** childlibbaku@yahoo.com

# GİRİŞ

Mədəniyyət və Turizm Nazirliyinin "2010-2014-cü illər üçün xalq yaradıcılığı paytaxtları" proqramına əsasən, 2010-cu ildə Qazax rayonu Azərbaycanın folklor paytaxtı elan olunmuşdur. Qazaxın çoxsahəli folkloru, hələ yazı mədəniyyətinin kifayət qədər formalaşmadığı bir dövrdə rəvayətlər, əsatirlər, əfsanələr, tapmacalar, atalar sözləri, xalq tamaşaları və s. şəklində yaddaşlarda yurd salaraq nəsillərdən-nəsillərə keçə-keçə xalqın tarixi, taleyi barədə əvəzsiz bilgilər verə-verə kamil sənət səviyyəsinə yüksəlmişdir.

Qazax folklorunun öz özəlliyi, öz gözəlliyi var. Bu torpağın hər guşəsində şairanəlik, əsrarəngizlik, füsunkarlıq duyulur. Qarayazı meşələri, Ceyrançöl düzləri, Göyəzən və Avey dağları, Xanım bulaq, Pəri bulaq, Bayram bulaq, ən ümdəsi isə Damcılı bulaq həmişə yaradıcı ürəklərin ilham mənbəyi olub, hər an insanları xoş əhvallara, ülvi duyğulara aparıb. Akademik Teymur Bünyadov yaxşı deyir ki, bu yerlər həmişə ədiblər yurdu, igidlər məskəni, zülfü pərişan, siyah tellər oylağı olub. Burada Aşıq Ələsgər saz çalıb, Vurğun xəyala dalıb, Kərəm at oynadıb... Çox güman ki, əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə keçən söz sərraflarından çoxunun adları və ünvanları sirli-soraqlı zamanın

yaddaşında, lal sükuta qərq olan məzarlarda ilişib qalıb. Bu unudulmaz unudulanları gərək folklorlarda, rəvayətlərdə, əfsanələrdə, ən müxtəlif şifahi xalq nümunələrində arayıb axtaraq.



**Göyəzən və Avey dağları**

Bizə bəlli olanı budur ki, XVIII əsrin böyük şairləri - Molla Vəli Vidadi və Molla Pənah Vaqif bu qədim yerlərin yetirmələri, Azərbaycan ədəbiyyatının klassikləri, şeir-sənət aləminin öncülləri, mənəvi dünyamızın sönməz çıraqlarıdır. Şifahi xalq sənətindən, müdrik folklor qaynaqlarından ilham alan Qazaxın qocaman sənətkarları və yenilməz sərkərdələri elə bu əzəmətli bünövrə üzərində ucalıblar. Qazax şairləri zaman-zaman müxtəlif mövzularda bir-birindən məzmunlu, bir-birindən gözəl əsərlərini xalqımıza ərməğan eləmiş, ibrətamizliklə dolu heyrətli ədəbi aləm yaratmışlar. Bunların arasında on doqquzuncu yüzilliyin yazarlarından Əbdürrəhman ağa Dilbaz, Mustafa ağa Arif, Mirzə Məhəmməd Qaib oğlu, Kazım ağa Saliq, Yəhya bəy Qazaği, İbrahim Əfəndi Nicati, Abdulla ağa Şıxlinski, Hüseyn Əfəndi Qaibov, Abbas ağa Nazir və başqaları xüsusi yer tuturlar.

İyirminci əsr Qazaxda sözün, sənətin əsl intibah dövrü, əvəzsiz inkişaf mərhələsinin zirvəsi sayıla bilər. Osman Sarıvəlli, Səməd Vurğun, Mehdi Hüseyn və başqaları elimizin zəngin folklor nümunələrindən qaynaqlanaraq ölməz sənət inciləri yaradıblar.

Xalq yazıçıları İsmayıl Şıxlı, İsa Hüseynov, Yusif Səmədoğlu, Mirvarid Dilbazi, Hüseyn Arif, Nəriman Həsənzadə, Vidadi Babanlı və başqaları xalqımıza layiq əsərləri ilə mənəvi dünyamızı zənginləşdiriblər. Bunların hər biri folklordan, şifahi xalq ədəbiyyatından güc-qüvvə alaraq söz-sənət aləmində əbədi lövbər salıblar.

Qazax folklorunun ən uca zirvələrindən biri aşıq sənəti ilə bağlıdır. Qazax mahalının sazlı-sözlü mənəvi dünyasının şah budağı el sənətkarları, haqq aşıqlarıdır.

Deyirlər, Qazax aşıq üslubu Göyçə və Borçalı aşıq məktəblərinin tərkib hissəsi, ayrılmaz bir parçasıdır. Aşıqlar xalqımızın ən qədim, ən ülvi sənəti olan şeir və musiqimizi yaradır, təbliğ edir, yaşadırlar. Bu əsərlərin çoxu elə kamildir ki, haqlı olaraq türk dünyasının inciləri sayılır. Türklər zaman-zaman at belində, sinədə qalxan, əldə qılınc, çiynində telli sazla zəfər çalıblar. Osman Sarıvəllinin sözü ilə desək, "Qılıncların, nizələrin yaraladığı, lakin qapısını aça bilmədiyi ürəkləri böyük aşıq sazın-sözün, əqlin-kamalın, müdrik ustadnamələrin, şirin qoşmaların, könülaçan müxəmməslərin və gəraylıların ecazkar qüdrəti ilə açdı, fəth etdi".

Tarix boyu Qazax mahalının saz-söz sərrafları toyların, məclislərin, el şənliklərinin bəzəyi olub. Dərviş Mahmud, Çoban Əfqan, Miskin Həsən, Mirzə Səməd, Dərya Məhəmməd, Aşıq Avdı Avdıyev, Aşıq Ədalət kimi ustad sənətkarlar elimizin əsl mənəvi sərvətidir. Ustadların yolunu uğurla yaşadan mahir ifaçılardan Aşıq Hüseyn Xalaoğlu, Aşıq Solmaz Kosayeva, Aşıq Pakizə Musaköylü, Aşıq Rakif, Aşıq Camoy Qurbanov, Aşıq Yaqub Yaqubov, Aşıq Hacı Abdıyev, Aşıq Şəhadət Gülməmmədov və onlarca başqası sinədəftər sənətkar kimi hər yanda tanınır.

Əlbəttə, bu həmişəyaşar sənət ilk öncə xalqın ruhundan, onun ən dəqiq ifadəçisi olan folklordan bəhrələnir. Qazaxın saz və söz biliciləri deyirlər ki, bu yerlərin aşıq sənətini əsasən üç qrupa ayırmaq olar. Birinci qrupa ustad aşıqlar daxil edilir. Onlar aşıq

sənətini yaşadan və inkişaf etdirən görkəmli sənətkarlar sayılırlar. XIX əsrdə yaşamış Aşıq Dərviş Mahmud, Aşıq Mansur, Aşıq Məmmədyar, Aşıq Müsəllim, Aşıq Miskin Əli, Aşıq Mirzə Səməd, Avdı Qaymaxlı və başqaları yalnız folkloru, aşıq yaradıcılığını mükəmməl bilmələri ilə deyil, eyni zamanda, coşqun şairlik təbinə malik olmaları ilə də fərqlənirdilər. Belə sənətkarların şeirləri əsasında xalq dastanları yaranırdı. Məsələn, Aşıq Avdı gözəl ifaçı olmaqla yanaşı, sənət aləmində həm də onlarca divani, gəraylı, qoşma, təcnis və müxəmməsin, "Avdı və Mehriban" adlı dastanın, habelə məşhur "İncəgülü" aşıq havasının müəllifi kimi tanınır. Yaxud Aşıq Mirzə Səmədin "Sarıtel" və "Boğça Çiçəyi" dastanları el arasında geniş yayılmışdır. Aşıq Məmmədyarın çox şeirləri, təcnisləri, qoşmaları, deyişmələri və digər janrlardakı şeirləri var və təəssüf ki, onlar bu günə kimi nəşr olunmayıb.

İkinci qrupa daxil olanlar ifaçı aşıqlardır. Bunların şairliyi, fərdi yaradıcılıq meyli olmasa da, gözəl səsə, yaxşı saz çalmaq və məclis aparmaq qabiliyyətinə malikdirlər. Onlar ustad aşıqların zəngin irsini öyrənir, təbliğ edir və gələcək nəsillər üçün yaşadırlar. Bu mənada Aşıq Ədalət Nəsibovun, Aşıq Hacının, Aşıq Kərəmin, Aşıq Yaqubun, Aşıq Camoyun, Aşıq Saqifin Aşıq Məmmədəlinin, Aşıq Abdunun, Aşıq Yaşarın və başqalarının fəaliyyəti təqdirəlayiqdir.

Üçüncü qrupa aşıq poeziyası üslubunda yazıb-yaradan el şairləri daxildir. Onların çoxu çalıb-oxumur, lakin dürlü sözləri ilə aşıq poeziyasını zənginləşdirir, dövrün aktual məsələlərini öz əsərlərində əks etdirirlər. Bu mənada el şairləri aşıq poeziyasına yeni nəfəs, ictimai məzmun gətirirlər. Yazıları klassik aşıq şeiri formasında olsa da, burada müasirlik son dərəcə güclü olur. Bu sahədə Qulu Cəfər oğlu Məşədiyevin, "Həvəskar" ləqəbli şair Allahverdi Vəli oğlu Hacalıyevin və başqalarının xidmətləri xüsusi qeyd olunmalıdır. Bir sözlə, Qazax aşıq sənəti elə bir mənəvi sərvətdir ki, onun mükəmməl araşdırılıb təbliğ olunması vacibdir.

Folklorun digər sahələrində də illər, əsrlər boyu çox dəyərli nümunələr yaradılmışdır və elə buna görə də heç təsadüfi deyil ki, qədim Qazax mahalı folklorun paytaxtı elan olunmuşdur.

Onu da deməyi özümüzə borc bilirik ki, indiyədək Qazaxın folkloru çox az tədqiq edilmişdir. 1968-ci ildə iki kitab şəklində çıxan "Azərbaycan folkloru antalogiyası" kimi akademik nəşrdə Qazaxın adına rast gəlmək olmur. Sonra həmin seriyadan "Qarabağ folkloru", "Borçalı folkloru", "Naxçıvan folkloru" adlı ayrıca kitablar nəşr olunsa da, Qazax folkloru nəzər-diqqətdən kənarda qalıb. Bilavasitə mütəxəssislərin əlindən çıxan beşcildlik "Azərbaycan nağılları"nda, "Atmacalar", "Yanıltmaclar", "Atalar sözləri", "Bayatılar" adlı kitablarda və digər toplularda da Qazax folkloru öz layiqli yerini tapmamışdır. Xüsusən, Göyəzən və Avey dağları, Qırmızı körpü və Damcılı bulağı, Qarayazı və Tuqay meşələri, Babadərviş və Göytəpə kurqanları, onlarca, yüzlərlə tarixi toponimlər haqqında əfsanə və rəvayətlərin tədqiqinə və təbliğinə böyük ehtiyac duyulur.



**Damcılı bulağı**

Ümidvarıq ki, yazılı ədəbiyyatdakı bu kəsir aradan qaldırılacaq, Qazax folklorunun sanballı, səviyyəli topluları oxuculara təqdim olunacaqdır.

*Lənkəran rayonu çox uğurla inkişaf edir. Rayonda çox böyük işlər görülür. Həm sənaye infrastrukturu, həm sosial infrastruktur yaradılır.*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Çox ölkələr gəzmişəm , çox səfərlərdə olmuşam. Etiraf edim ki, belə gözəl səfərim olmayıb, belə yaraşıqlı diyar, qonaqpərvər adamlar heç yerdə görməmişəm. Lənkəran möcüzədir. Lənkəran kommunizm timsallı şəhərdir. Yer görmüşəm təbiəti xoşuma gəlməyib, amma adamları məni valeh edib, yer də görmüşəm ki, təbiəti ürəyimcə olub, lakin adamları xoşuma gəlməyib, Lənkəranın həm təbiəti, həm də adamları gözəldir.*

***Mikola Upenik***
***Ukrayna yazıçısı***

Azərbaycan folklorunu yaşadan ərazilərdən biri də Lənkərandır. Bu məkanda aparılan arxeoloji qazıntılar şəhərin hələ eramızdan əvvəl III-II əsrlərdə yaşayış ərazisi olduğunu təsdiqləyir. Şəhərin Xəzər dənizi sahilində yerləşməsi, əsrlər boyu karvan yollarının üstündə olması onun iqtisadi və mədəni inkişafını təmin edən əsas amillərdən olub.

Lənkəran regionu zəngin folklor mədəniyyətinə malikdir. Lənkəranlı nənələrin ifasında xalq havalarını təkcə bu bölgədə deyil, Azərbaycanın hər yerində sevirlər və məmnuniyyətlə dinləyirlər. Onların milli geyimlərdə sındıra-sındıra, həm də ağayana rəqs etməsi isə həmin ifaların kulminasiyasıdır.

Regionun folklor xəzinəsi zaman-zaman tədqiqatçıların diqqətini cəlb edib. Dahi Üzeyir bəy Lənkəran və ətraf rayonlarda yayılmış xor oxumalarına diqqət verib. Onun bəstəkar dostu və məsləkdaşı Müslüm Maqomayev bir neçə il Lənkəranda məktəb müəllimi işləyib və buradakı məhəlli folklor nəğmələri ilə yaxından tanış olub, onların bəzilərini xor üçün işləyib. Lənkəranda, eləcə də Astara və Masallı rayonlarında xalqın adət - ənənələrinə və musiqi yaradıcılığına göstərilən böyük maraq folklor həvəskarlarını və ya həvəskar folklorçuları meydana gətirib.



Lənkəranda «Bacılar» talış xalq folklor mahnı və rəqs kollektivi, 1974-cü ildə yaradılmış «Şənlik» mahnı və rəqs ansamblı bu gün də folklorumuzu yaşadır və təbliğ edir. Ansambl 1977- ci ildə Polşa Xalq Respublikasının Zakopaniye şəhərində keçirilən Beynəlxalq folklor festivalında ən yüksək mükafata - “Qızıl balta”ya layiq görülmüşdür. Respublikanın xalq artisti Xumar Zülfüqarovanın, yerli ziyalıların, müsiqiçilərin gərgin axtarışları nəticəsində bu yerlərin qədim, zəngin musiqi və rəqsləri əsrlərin dərinliyindən çıxarıb “Şənlik” ansanbılının ifasında yenidən xalqa qaytarılmışdır. “Şənlik” xalq mahnı və rəqs ansamblının repertuarında əsasən xalq mahnı və rəqsləri mühüm yer tutur. Bunlardan "Şalı-Şalı", "Lənkəran toyu", "Yallı", "Hey-yar" və s. rəqslər milli adət-ənənələri özündə əks etdirir. Hər bir xalqın tarixinin və mədəniyyətinin ərəfəsi, həmçinin ilkin başlanğıcı onun mifologiyası ilə təsdiqlənir. Bu baxımdan Azərbaycan ruhunun ifadəsi kimi zəngin folklor nümunələrimizin qorunub saxlanmasında Lənkəran rayonunun rolu əvəzsizdir.

Bu ərazidə qədim insanlar 15-20 min il bundan əvvəl yaşayıb. Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm", Mirzə Seyidəli Kazımbəy oğlunun "Cavahirnameyi Lənkəran", salnaməçi Mirzə

Əhməd Mirzə Xudaverdi oğlunun "Əxbarnamə" əsərlərində, həmçinin bir sıra Avropa və rus səyyahlarının səyahət qeydlərində Masallının tarixinə dair qiymətli məlumatlar əksini tapıb.

"Masallı" coğrafi adının meydana gəlməsi haqqında bu vaxta qədər bir çox mülahizə və rəvayətlər söylənilib. Bəzi tarixi mənbələrdə bu toponim "məsəlli-məsəl çəkilən yer, məsəl çəkənlər" mənasında səciyyələndirilir. Masallı sözünün "Mosullu" sözündən yaranması da ehtimal edilir. Digər mənbələrdə bu torpaqlarda Masal adlı bir xanın yaşadığı və onun şərəfinə Masallı adlandırıldığı bildirilir. "Azərbaycanın coğrafi adları" kitabında (müəlliflər R.Yüzbaşov və Ş.Sədiyev) "Masallı-Masal nəslinə mənsub" şəklində qeyd olunub. Bəzi tarixi mənbələrdə qeyd olunur ki, yaşayış məntəqəsinin sakinləri İranın "Masal" əyalətindən köçüb gəldiklərindən bu yer Masallı adlandırılıb.

Rayonun Ərkivan, Hişkədərə, Boradigah, Hacıtəpə, Şəhriyar, Xırmandalı, Mahmudavar, Çaxırlı, Ərəb, Qızılağac, Qəriblər, Öncəqala, Köhnə Alvadı və s. kəndlərinin yaxınlığında qədim şəhər, qala kurqanı, türbə məqbərə yerləri aşkar edilib. Bu ərazilərdən tunc, dəmir, antik və orta əsrlər dövrünə aid xeyli miqdarda maddi-mədəniyyət nümunələri toplanıb. Həmin eksponatlar Masallı (Hişkədərə) Tarix-Diyarşünaslıq Muzeyində mühafizə olunur.

Masallı özünəməxsus xalq sənəti nümunələri ilə tanınır. Musaküçə kəndində toxunan həsirlər, Türkoba kəndində hazırlanan baş yaylıqları, Ərkivan kəndinin dulusçuluq məhsulları, dağ kəndlərində toxunan xalçalar, corablar, əlcəklər, Qəriblər, Kolatan və Sığdaş kəndlərində milli naxışlarla bəzədilən ağac məmulatları bu qəbildəndir.

Rayon zəngin folkloru, xalq musiqisi və rəqsləri ilə də tanınır. 1959-cu ildən fəaliyyət göstərən «Halay» rəqs ansamblı da qədim rəqslərimizi və folklorumuzu təbliğ edir. Qeyd edək ki, Masallı şəhərinin "Azərbaycanın Folklor Paytaxtı" elan edilməsi çərçivəsində bu məkanda beynəlxalq folklor festivalları keçirilmişdir.





**«Halay» rəqs ansamblı**




Zaqatala rayonu Azərbaycan Respublikasının şimal-qərbində, Böyük Qafqaz sıra dağlarının cənub yamacları Qanıx-Əyriçay vadisində yerləşir. Zaqatala inzibati rayonu 1830-cu ildə təşkil edilmişdir. Zaqatala 1840-ci ildən şəhər adlandırılmışdır.1803-cü ildə Zaqatala qəzası Rusiyanın tərkibinə daxil olmuşdur. Zaqatala sözünün yaranmasına dair (etimologiyaya görə) bir neçə rəvayət vardır. Müasir Zaqatala adı Sakatala (Sak düzü) adını dəyişilmiş formasını təşkil edir. E.ə. VII əsrin əvvəlində Kimmer - Skit dalğaları ilə Ön Asiyaya düşmüş sak tayfaları Albaniyanın ərazisində də məskən salmışlar və bu ərazi Kür çayının sağ sahilindən (Kür-Araz qovşağı daxil olmaqla) Qafqaz dağ ətəklərinə qədərki ərazini tuturdu. Zaqatala rayonu da qədim Qafqaz Albaniyasının ayrılmaz hissəsi olmaqla onun qərbində yerləşirdi...

Belə rəvayət edirlər ki, bu yerlər sıx meşə ilə örtülü olanda bir nəfər varlı adam bura gəlib, meşənin ortasındakı talada özünə yurd-yuva salmışdır, onun çoxlu mal qarası, qoyun sürüləri olmuşdur. Həmin adamın adı  Zəki imiş. Kənar kəndlərdə həmin adamın məskən saldığı yeri onun adı ilə “Zəki Tala” və ya “Zəkinin talası” adlandırarmışlar. Bu söz sonralar dəyişilib

Zaqatala şəklinə düşmuşdür. Amma bu fikirlər hələ elmi cəhətdən əsaslandırılmamışdır.

Car və Tala kəndlərinin tarixi şəhərin tarixindən daha qədimdir hələ 300 il bundan qabaq həmin kəndlər İlusu xanlığının tabeçiliyində olmuşlar. Tarixdən məlum olur ki, bu kəndlərin əhalisi öz igidlikləri ilə hələ o vaxtlar ad-san çıxarıbmışlar. Onlar uzun müddət İlusu xanlığının hakimiyyətinə qarşı, sonra isə İran şahı Nadirin zülmünə qarşı amansız mübarizə aparmışlar. XVIII əsrin birinci yarsında Nadir şah bu tərəfləri özünə tabe etmək üçün güclü qoşun göndəribmiş. Carlılar və Talalılar Nadirin qoşunları ilə vuruşmuş, ona baş əyməmişlər.

Rayon ərazisində, ekoturizmin inkişafı üçün əvəzsiz, 1839-cu ildə təşkil olunmuş (ərazisi 23800 ha.) Zaqatala Dövlət Qoruğu, Zaqatala şəlaləsi, Xalaxi gölü, Malarasa aşırımı, ölkə və rayon əhəmiyyətli 108 tarix-mədəniyyət abidəsi var. Həmçinin Mosul kəndi ərazisində olan XIX əsrdə tikilmiş minarə bu rayonun ən gozəl memarliq abidələrindən biri sayılır. Onun maketi Zaqatala rayonunun tarix muzeyində saxlanılır. Qeyd edim ki, Mosul kəndində yaşayan əhalinin 100 faizi ingiloylardir. Onlardan Mamrux kəndi ərazisindəki II-IV əsrlərə aid alban abidəsi, V-VII əsrlərə aid Zaqatala səddi, Car kəndi ərazisində XVI əsrə aid Cingözqala, 1830-cu ildə tikilmiş Zaqatala qalası və s. göstərmək olar. Rayonun şimal-şərq ərazisində dağlıq, cənub və cənub-qərb hissədə düzənlik relyef üstünlük təşkil edir. Rayonda ən uca nöqtə Quton dağıdır. (3648 m). Düzənlikdə mülayim, dağlarda soyuq iqlim müşahidə olunur. Yanvar ayının orta temperaturu düzənlikdə -1°C, dağlarda -10°C, iyul ayının orta temperaturu isə, müvafiq olaraq +24°C və +5°C olur. Burada ildə 600–1600 mm yağıntı düşür. Rayon ərazisinın yarısı, əsasən dağlıq ərazilər, meşələrlə örtülmüşdür. Zaqatala – beynəlmiləl rayondur. Burada əsasən azərbaycanlılar, saxurlar, avarlar, ingiloylar ruslar və başqaları yaşayır. Rayonun ərazisində çoxsaylı tarix və mədəniyyət abidələri var. Mərkəzi Zaqatala şəhəridir. Şəhər dəniz səviyyəsindən 535 metr hündürlükdə Azərbaycan Respublikasının

paytaxtı olan Bakı şəhərindən 445 km aralıda, Tala çayının sahilində, Yevlax-Balakən şossesi yolunun üzərində yerləşir.

Zaqatala rayonunun florası müxtəlif qiymətli ağac növləri ilə zəngindir –şabalıd, qoz, fındıq, palıd, vələs, qarağac və s. Fauna – maral, dağ keçisi, qaban, ayı, canavar, dovşan, həmçinin çoxlu quş növləri ilə təmsil olunmuşdur–qırqovul, kəklik, dağ şahini, çalağan, turac, dolaşa və bülbül.

1929-cu ildə burada, Baş Qafqaz dağlarının cənub yamaclarında “Zaqatala” Dövlət qoruğu yaradılmışdır.

“Xalq yaradıcılığı paytaxtları” proqramı çərçivəsində 2013-cü ildə Zaqatala rayonu Azərbaycanın folklor paytaxtı seçilmişdir.




Azərbaycanın qeyri-maddi mədəni irsinin dəstəklənməsi, təbliği və təşviqi istiqamətində aparılan islahatlarla əlaqədar Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq olunmuş “2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları” Proqramına əsasən 2014-cü il üçün Balakən “Azərbaycanın Folklor Paytaxtı” élan edilmişdir. Balakənin özünəməxsus milli musiqi aləti olan iki simli tamburdan el şənliklərində, tütün, yun, qarğıdalı və fındıq təmizlənən iməciliklərdə istifadə olunur. Tamburun müşayəti ilə həm kişilər, həm də qadınlar haylalar söyləyir, Balakənə məxsus

yerli rəqsləri ifa edirlər. Bu adət rayonun Mahamalar, Tülü, Talalar kəndlərində, Qabaqçöl qəsəbəsində qorunub saxlanılır. Toy məclislərinin sonrakı günü, adət-ənənlərimizə görə "Təzə gəlin süzən çayı içmək" üçün gələn qohumlar tamburun müşayiəti ilə əylənirlər. Keçən əsrin 30-cu illərindən Balakənli söz ustası, Azərbaycan aşıqlarının I qurultayının iştirakçısı aşıq Sənəmin haylaları (bayatıları) hələ də dillərdə əzbərdir.





***Balakənin özünəməxsus milli musiqi aləti olan iki simli tambur***

Rayonda dəmirçilik, papaqçılıq, toxuculuq və bədii tikmə, şəbəkə hazırlanması, ağac və daş üzərində oyma, ipəkçilik, sərraclıq, təkəlduzluq, duluzçuluq və zərgərlik kimi xalq sənətkarlıq nümunələri geniş yayılmışdır. Öz sənətini nəsildən-nəsilə ötürən el sənətkarları indi də həmin sahələrə aid ən gözəl sənət nümunələrini hazırlayırlar.

Balakənin təkrarolunmaz, özünəməxsus milli kulinariyası vardır. Sac üzərində bişirilən, günəş rəmzi daşıyan maxara, toyuq çığırtması, iribuynuzlu heyvan içalatından hazırlanan ev kolbasası (bağırsaq dolması adlanır), ət, şor, qabaq (boranı) xəngəlləri, ət, şor, gicitkən, qabaq qutabları (yerli dialektdə xitəb adlanır),

soğança, boş xəngəl ancaq Balakənli qadınlar tərəfindən ustalıqla hazırlanıb bişirilir.

Xörəklərin bir çoxunun hazırlanmasında mədəni şəkildə becərilən yerli ədvadan (ət otundan) geniş istifadə olunur.

Rayonda dağ yamaclarında bitən xüsusi növ kəkotundan (xinçi adlanır), təzə və qurudulmuş cökə çiçəklərindən dəmlənən çay soyuqdəymə, zökəm, baş ağrıları, ümumhalsızlıq kimi xoşagəlməz fəsadları aradan qaldırmaqda əvəzsiz vasitədir.

Balakən müxtəlif millətlərin mehriban şəkildə yaşadığı rayondur. Rayonda yaşayan hər bir millətin adət-ənənəsi, mədəni irsi qorunub saxlanılır və təbliğ edilir. Milli azlıqlar içərisində üstünlük təşkil edən avar xalqına məxsus Qaysa kənd mədəniyyət evində "Cahan" folklor ansamblı, Qabaqçöl qəsəbə folklor klubunun "Qubek" rəqs qrupu, Mahamalar kənd mədəniyyət evində "Təbəssüm" rəqs qrupu, ingiloylar yaşayan İtitala kənd mədəniyyət evində isə "Şəlalə" studiyası və "Nənələr" rəqs qrupu yaradılıb. Bu kollektivlər Mədəniyyət və Turizm Nazirliyinin qeyri-maddi mədəni irsimizin, eləcə də ölkədə yaşayan azsaylı xalqların toplumlarının mədəniyyət nümunələrinin qorunması, tanınması istiqamətində il ərzində keçirdiyi bütün layihələrdə, beynəlxalq və respublika miqyaslı festivallarda fəal iştirak edərək rayonumuzu layiqincə təmsil edərək dəfələrlə diplom, fəxri fərman və qiymətli hədiyyələrlə təltif olunublar.

# Ədəbiyyat

## Kitab


**1993**

**1.Lənkəran boğçası**: [Ağız ədəbiyyatı örnəkləri] /toplayanı, tərtib edən və işləyəni. Hacı Etibar Əhmədov; red. E. Əliyev.-Bakı: İşıq, 1993.-104 s.

**2005**

**2.Azərbaycan folkloru antologiyası:** Şəki-Zaqatala folkloru: XIII Cild Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən, folkloru /AMEA, Folklor İn-tu; tərt. ed. İ. Abbaslı, O. Əliyev, M. Abdullayeva; elmi red. H. İsmayılov; nəşrinə məsul Ə. Ələkbərli Bakı: Səda, 2005.-549, [1] s.:

**2011**

**1.Babaların hikmət xəzinəsi:** milli azlıqların folkloru: Şəki-Balakən bölgəsi /Ə.A. Süleymanov; red. M.Qasımlı, Z.Əlizadə; AMEA, Şəki Regional Elmi Mərkəzi. Bakı: Apostroff, 2011.-254, [2] s.

**2012**

**2.Azərbaycan folkloru antologiyası** /AMEA, Folklor İn-tu; toplayıcılar M. Həkimov; tərt. ed. R. Xəlilov, Ə. Ələkbərli; red. T. Orucov. 21-ci Kitab Qazax örnəkləri.-Bakı: Elm və təhsil, 2012.-375, [1] s.

**3.Masallı folkloru** /F.B.Sadıqov; elmi red. F.Bayat; red. N. Ədiloğlu I kitab.-Bakı: Maarif, 2012.-147, [1] s.

**2013**

**4.Azərbaycan aşıq şeirinin sazla əlaqəli inkişaf yolu** /S.P. Pirsultanlı; red. M. Qasımlı; Azərb. Resp. Təhsil Nazirliyi, Gəncə Dövlət Un-ti.-Gəncə: GDU, 2013.-95, [1] s.

**5.Masallı folklor örnəkləri** /AMEA, Folklor İn-tu; toplayıb tərt. ed. F.Bayat; red. M. Kazımoğlu (İmanov) I-ci kitab.-Bakı: Elm və təhsil, 2013.-417, [1] s.

**2016**

**6.Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm:** Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəkləri əsasında: [monoqrafiya] /M. Yaqubqızı; elmi red. M. B. Əsgərov; [ön söz M. B. Əsgərov, M. Ə. Mahmudov]; AMEA, Folklor İn-tu. Bakı: Elm və təhsil, 2016. 181, [2] s.

**2017**

**7.Zaqatala folklor örnəkləri** /tərt. ed. Z. İ. Mənsimova; red. M. Yaqubqızı Cild 1.-Bakı: Sabah, 2017. -502, [2] s.

# Dövrü mətbuat

## 2010

**8.Azərbaycan şəhərləri əfsanələr, folklor və sənətkarlıq paytaxtları elan olunmuşdur** //Azərbaycan.-2010. -25 fevral.- S. 2.

**9.Azərbaycanın folklor paytaxtı** /Ə.İsayev //Azərbaycan.-2010.- 20 iyun. - S. 4.

**10.Bayatılar** //Mədəni-maarif.-2010.- №6.- S.8-9.

**11.Elimizdən, günümüzdən:** Folklor Paytaxtı /Y.Vəliyev //Mədəni-maarif.-2010.- №6.- S.7.

**12.Gülməcələr, inanclar, baməzə** //Mədəni-maarif.-2010.- №6.- S.10-11.

**13.Xalq Yaradıcılığı Paytaxtları proqramına start verildi:** "Gəncə - Azərbaycanın Əfsanələr Paytaxtı", "Qazax - Folklor Paytaxtı", "Şəki isə Sənətkarlıq Paytaxtı" elan olundu /T. Məhərrəmova //Kaspi.-2010. - 25 fevral.- S.11.

**14.Qazax şəhəri "Azərbaycanın Folklor Paytaxtı" elan edilib** /Zümrüd //Səs.-2010. - 13 oktyabr. - S. 12.

**15.Maddi-mədəni irsin qorunmasında daha bir addım:** Gəncə Azərbaycanın əfsanələr, Qazax folklor, Şəki sənətkarlıq paytaxtı elan olundu /Ayxan //Ekspress.-2010.-25 fevral.- S. 10.

## 2011

**16.2011-ci ildə Lənkəran şəhərinin "Azərbaycanın folklor paytaxtı" elan edilməsi ilə bağlı yekun tədbir keçirilmişdir** //Azərbaycan.-2011.- 31 dekabr.- S. 7.

**17.Azərbaycanın əfsanələr, folklor və sənətkarlıq paytaxtları elan olunmuşdur** //Azərbaycan.-2011.- 4 mart.- S. 3.

**18.Azərbaycanın folklor paytaxtı:** Lənkəran /Mehparə //Mədəniyyət.-2011.- 26 avqust.- S. 9.

**19.Xalq yaradıcılığı paytaxtları:** Şabran, İsmayıllı, Lənkəran /A.Sultanova //Mövqe.-2011.- 15 aprel.- S. 4.

**20.Xalq yaradıcılığına dövlət qayğısı artırılır.** Bu il Lənkəran şəhəri "Azərbaycanın folklor paytaxtı" elan edilmişdir /Ə.Nəcəfxanlı //Xalq qəzeti.-2011.- 4 sentyabr.- S. 5.

**21.Lənkəran - "Azərbaycanın folklor paytaxtı"** /İ. Ağayev //Palitra.-2011.- 25 oktyabr.- S. 7.

**22.Lənkəran "Azərbaycanın folklor paytaxtı"dır** /S.Cavadov //Azərbaycan.-2011.- 21 may.- S. 7.

**23.Lənkəran folkloru, Mirhaşım müəllim və bir ovuc gülas çiçəyi...** /T.Vahid //Mədəniyyət.-2011.- 27 iyul.- S. 10.

**24.Lənkəran şəhəri "Azərbaycanın Folklor Paytaxtı"dır** /Zümrüd //Səs-2011.- 25 noyabr.- S. 12.

**25.Lənkəran: Azərbaycanın folklor paytaxtı** //Mədəniyyət.-2011.- 30 sentyabr.- S. 15.

**26.Lənkəranda "Folklor paytaxtı" tədbirlərinə yekun vuruldu** //Mədəniyyət.-2011.- 30 dekabr.- S. 8.

**27.Şabran – "Azərbaycanın əfsanələr paytaxtı":** Lənkəran "folklor paytaxtı", İsmayıllı "sənətkarlıq paytaxtı" elan edildi /Ayxan //Ekspress.-2011.- 2 fevral.- S. 14.

## 2012

**28.Azərbaycan folkloru mədəni sərvətimizdir:** "Folklor Paytaxtı"nda elmi-praktik konfrans /Ə.Nəcəfxanlı //Xalq qəzeti.-2012.- 20 iyul.- S. 7.

**29.Azərbaycan folkloru mədəni sərvətimizdir:** "Folklor Paytaxtı"nda elmi-praktik konfrans /E.Hacıyeva //Mədəniyyət.-2012.- 18 iyul.- S. 6.

**30.Azərbaycanın "Folklor Paytaxtı" Masallıya infotur təşkil olunub** /G.Musa //525-ci qəzet.-2012.- 20 dekabr.- S. 7.

**31.Azərbaycanın xalq yaradıcılığı paytaxtlarının təqdimatı olmuşdur** //Azərbaycan-2012.- 16 mart.- S. 5.

**32.Folklor paytaxtı Masallı gördük onu xoş misallı** /S. Elsevər//Ekspress.-2012.-30 dekabr. - S.21.

**33.Gəlməli, görməli Masallı "Azərbaycanın Folklor Paytaxtı" nominasiyasını bu rayondan necə geri almalı?** /E.Cəbrayıloğlu //Ədalət.-2012.- 22 dekabr.- S.14.

**34.Masallı – folklor paytaxtı** /Ə.Həsənov//Xalq qəzeti.-2012.- 22 dekabr.- S. 10.

**35.Masallı - nağıl misallı** /Ə.Nəcəfxanlı //Xalq qəzeti-2012.-30 may.- S. 13.

**36.Masallı 2012-ci ilin folklor paytaxtıdır** /S.Cavadov //Azərbaycan.-2012.- 25 iyul.- S. 6.

**37.Masallı Azərbaycanın folklor paytaxtı adını layiqincə doğruldur** /Ə.Nəcəfxanlı //Xalq qəzeti-2012.- 4 dekabr.- S. 6.

**38.Masallı Azərbaycanın folklor paytaxtı adını layiqincə doğrultdu** /Ə.Həsənov //Respublika .-2012.- 20 dekabr.- S. 11.

**39.Masallı Azərbaycanın folklor paytaxtıdır** /Ə.Nəcəfxanlı //Xalq qəzeti.-2012.- 4 sentyabr.- S. 6.

**40.Masallı beynəlxalq tədbirlərə inamla sahiblik edə bilər:** "Azərbaycanın Folklor Paytaxtı" tədbirləri xaricilərdə böyük maraq və rəğbət doğurub /İ.Ağayev //Palitra.-2012.- 25 dekabr.- S.11.

**41.Masallı Folklorumuzun paytaxtı** /E.Həsənqızı //Mədəni həyat.-2012.- № 8.- S. 97-100.

**42.Masallı qədim və zəngin bir məkandır** /İ.Ağayev //Palitra.-2012.- 9 oktyabr.- S. 11.

**43.Masallı ölkəmizin folklor paytaxtıdır** //Respublika.-2012.- 17 aprel.- S. 10.

**44.Masallıda "Folklor paytaxtı" ilinə yekun vuruldu** /F.Abdullayeva //Mədəniyyət.-2012.- 19 dekabr.- S. 9.

**45.Masallıda Beynəlxalq Folklor Festivalı keçirilib** //Mədəniyyət.-2012.- 12 sentyabr.- S. 4; Xalq qəzeti.-2012.- 15 sentyabr.- S. 4.

**46.Masallıda beynəlxalq folklor festivalına hazırlıq yekunlaşıb** /Ceyhun //Mədəniyyət-2012.- 5 sentyabr.- S. 8.

**47.Masallıda tarixləşən Beynəlxalq Folklor Festivalı** /S.Məmmədli //Ədalət-2012.- 27 sentyabr.- S. 3.

**48.Masallıda tarixləşən Beynəlxalq Folklor Festivalı** /S.Məmmədli //Ədalət.-2012.- 26 sentyabr.- S. 3.

**49.Milli-mənəvi dəyərlərimizi yaşatmaq keçmişə ehtiram, gələcəyimizə zəmanətdir:** "Masallı 2012-ci ilin folklor paytaxtıdır" festivalı uğurla başa çatdı /S.Cavadov //Azərbaycan.- 2012.- 21 dekabr.- S.7.

**2013**

**50.2013-cü ilin "Folklor paytaxtı"nın təqdimat mərasimi** //Mədəniyyət.-2013.- 6 mart.- S. 2.

**51.Abayın növbəti uğuru** /V.Kərimov//Mədəniyyət.-2013.- 6 sentyabr.- S. 15.

**52.Azərbaycan folkloru mədəni sərvətimizdir:** "Folklor paytaxtı" Zaqatalada dəyirmi masa /N.Məmmədov //Mədəniyyət.- 2013.- 26 iyun.- S. 6.

**53.Balaca Paris:** Zaqatala şəhəri Folklor paytaxtı kimi yekun tədbirlərini keçirdi /T.Məhərrəmova //Kaspi.-2013.- 24 dekabr.- S.9.

**54.Folklor paytaxtı"nda xalq yaradıcılığı bayramı** //Mədəniyyət.-2013.- 18 oktyabr.- S. 8.

**55.Folklor paytaxtı-2013- Zaqatala** /Z.Ağakişiyeva; Müsahibəni apardı /A.Miriyev //Palitra.-2013.- 7 may.- S.11.

**56.Folklor paytaxtında gənclər festivalının zona mərhələsi keçirilib** //Mədəniyyət.-2013.- 4 sentyabr.- S. 11.

**57.Folklor paytaxtında sərgi-yarmarka** /S.Musa //Mədəniyyət .-2013.- 13 noyabr.- S. 9.

**58.Folklor paytaxtının zəngin mədəni irsi** /Ş.Xəlilov //Mədəniyyət.-2013.- 5 aprel.- S. 15.

**59.Folklor və Sənətkarlıq paytaxtlarımıza səfərin unudulmaz təəssüratı** /R.Əhməd //525-ci qəzet.- 2013.- 25 dekabr.- S. 4.

**60.Folklorumuzun paytaxtı** /Ş.Xəlilov //Mədəni həyat.- 2013.- № 7.- S. 60.

**61.Hər zaman qonaq-qaralı:** "Folklor paytaxtı" - Massallı /L.Mövsümova //Mədəniyyət.-2013.- 15 mart.- S. 11.

**62.Xalq sənətinin gələcək nəsillərə ötürülməsində dövlət qayğısı mühüm rol oynayır:** Bu il Zaqatala ölkəmizin folklor paytaxtıdır /Z.Ağakişiyeva //Azərbaycan.-2013.- 22 noyabr.- S. 10.

**63.Masallı "Azərbaycanın folklor paytaxtı" kimi tanınır** /Z.Cavadov//Respublika.-2013.- 25 dekabr.- 8.

**64.Masallı turizm mərkəzinə çevrilir:** Folklor festivalına hazırlaşan rayonda geniş abadlıq işləri görülür /İ. Quliyev//Kaspi.- 2013.- 7 iyun.- S. 9.

**65.Masallıda Dünyanın folklor çələngi** /Ə.Həsənov //Respublika.-2013.- 14 iyun.- S.6.

**66.Masallıda II Beynəlxalq Folklor Festivalı** /Ə.Həsənov //Respublika.-2013.- 12 iyun.- S.7.

**67.Masallıda II Beynəlxalq Folklor Festivalı keçirilir** //525-ci qəzet.-2013.- 14 iyun.- S. 7.

**68.Mədəniyyətlərin beşiyi–Zaqatala** /B.Məcidov //Zaman.- 2013.- 25 dekabr.- S.7.

**69.Tolerantlığın simvolu- Zaqatala:** "Folklor paytaxtı"ndan zəngin təəssürat /F.Abdullayeva//Mədəniyyət.-2013.- 25 dekabr.- S. 8.

**70.Zaqatala 2013-cü il üçün Azərbaycanın folklor paytaxtı seçilib** /Z. Ağakişiyeva //Azərbaycan.-2013.- 28 aprel.- S.10.

**71.Zaqatala Azərbaycanın folklor paytaxtıdır** /R.Amanov //Respublika.-2013.- 27 noyabr.- S.6.

**72.Zaqatala daha böyük tədbirlərə ev sahibliyi edəcək** /Z.Ağakişiyeva; Müsahibəni apardı: Q.Məhəbbətoğlu, İ.Əmirov //Zaman.-2013.- 19 iyun.- S.7.

**73.Zaqatalada gənclərin folklor festivalı** /Ceyhun //Mədəniyyət.-2013.- 28 avqust.- S. 4.

**74.Zaqatalanı paytaxta çevirənlər Uzaq rayonu jurnalistlərə yaxın edən səfər** /E.Cəbrayıloğlu //Ədalət.- 2013.- 24 dekabr.- S.6.

**75.Zaqatalanın folkloru, mətbəxi sərgilərdə geniş təbliğ olunur** /Z.Ağakişiyeva; Müsahibəni apardı: A.Miriyev //Palitra.- 2013.- 14 sentyabr.- S. 11.

**2014**

**76.Ailə dəyərləri milli-mənəvi irsdir** //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 9.

**77.Balakən payızı folklor və turizm festivalı** //Mədəniyyət.- 2014.- 26 dekabr. - S. 11.

**78.Balakən–Azərbaycanın folklor paytaxtı** /İ.Pənahov //Respublika.-2014.- 15 oktyabr.- S.8.

**79.Balakəndə folklor bayramı və poeziya görüşü** /F. Hüseynov//Mədəniyyət.-2014.- 26 sentyabr.- S. 2.

**80.Balakənin söz sənəti** //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 10.

**81.Folklor xəzinəsində hər xalqın öz payı var**: Balakənin folklor kollektivləri festivallarda uğurla iştirak ediblər //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 11.

**82.Folklor paytaxtı Balakən:** İl ərzində gerçəkləşən tədbirlər gələcəkdə yeni layihələrə zəmin olacaq //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 8.

**83.Folklor paytaxtı Balakəndə dəyirmi masa** //Mədəniyyət.-2014.- 2 may.- S. 5.

**84.Folklor paytaxtı ilində bölgəyə turistlərin marağı artıb** //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 11.

**85.Folklor paytaxtına 20 minə yaxın turist gəlib:** //Mədəniyyət.-2014.- 24 oktyabr.- S. 7.

**86.Folklor paytaxtında “Balakən payızı”** /F. Hüseynov //Mədəniyyət.-2014.- 1 oktyabr.- S. 12.

**87.Folklor paytaxtında kitab bayramı** //Mədəniyyət.-2014.- 26 dekabr. - S. 10.

**88.Folklor paytaxtının təqdimatı** //Mədəniyyət.-2014.- 30 aprel.- S. 11.

**89.Folklor paytaxtının zəngin mədəniyyəti** //Mədəniyyət.- 2014.- 26 dekabr. - S. 9.

**90.Folklor paytaxtının zəngin mədəniyyəti** /N.Qarakişiyeva //Mədəniyyət.-2014.- 14 may.- S.12.

**91.Masallıda folklor festivalı** /S.Cavadov //Azərbaycan.- 2014.- 9 yanvar.- S.6.

**92. Məhsul bayramı - ənənənin davamı** //Mədəniyyət.- 2014.- 26 dekabr. - S. 11.

**93.Milli atüstü oyun ənənələrimiz yaşadılır** //Mədəniyyət.- 2014.- 26 dekabr. - S. 9.

## 2015

**94.Folklor paytaxtının uğurları** /T.Nəzərli //Azərbaycan.- 2015.- 17 fevral.- S.8.

**95.Minilliklərin mənəvi və mədəni yadigarları qorunur:** 2014-cü ildə Qəbələ "Əfsanələr paytaxtı", Balakən "Folklor paytaxtı", Abşeron isə "Sənətkarlıq paytaxtı" kimi tanındı /M.Nərimanoğlu //Azərbaycan.-2015.- 1 fevral.- S.6.

**96.Minilliklərin mənəvi və mədəni yadigarları qorunur:** 2014-cü ildə Qəbələ "Əfsanələr paytaxtı", Balakən "Folklor paytaxtı", Abşeron isə "Sənətkarlıq paytaxtı" kimi tanındı /M.Nərimanoğlu //Azərbaycan.-2015.- 1 fevral.- S.6.

**97.Zaqatala aşıq mühiti:** filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: 10.01.09 /Z.İ.Səmədova; AMEA, Folklor İn-tu.- Bakı: 2012.-28, [1] s.

## Dissertasiyalar

**2002**

**98.Azərbaycan folklorunun regional xüsusiyyətləri:** (Şəki-Zaqatala folklor nümunələri əsasında): filol. e. n. a. dər. al. üçün təq. ed. dis. /M.Abdullayeva; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu.-Bakı: 2002.-158, [1] s.

**2014**

**99.XX əsr Qazax aşıq mühiti**: filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı /İ.C.Qəsəbova; AMEA, Folklor İn-tu. Bakı: 2014. -31, [1] s.

**100.XX əsr Qazax aşıq mühiti**: filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis /İ.C.Qəsəbova; AMEA, Folklor İn-tu. Bakı: 2014.-153 s.

**2016**

**101.İnanc folkloru kontekstində ocaqlar və pirlər** (Masallı örnəkləri əsasında): filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis-nın avtoreferatı /N.Z.Muxtarzadə; AMEA, Folklor İn-tu. Bakı: 2016.-26 s.

## İnternet resursları:

www.azertag.com
www.anl.az
www.clb.az
www . mətbuat.az
www. medya.az
www. sia.az

# Azərbaycanın folklor paytaxtları

(Qazax, Lənkəran, Masallı, Zaqatala, Balakən)
Respublika Uşaq kitabxanaları üçün
tövsiyə biblioqrafiyası

**Komputer yığımı**
**və dizayn:** **Tünzalə Əzizova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: info@clb.az**
**URL:www.clb.az**

F. Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 3
Çapa imzalanmışdır: 13.12.2017
Tirajı:100
Pulsuz.